| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 28.12.2018 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1417-VQD |
| **ADI** | “Torpaq icarəsi haqqında”, “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” və “Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 30-01-2019, Nəşr nömrəsi: 23), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2019, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 34) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 30.01.2019 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 110.040.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12201812281417 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 30.01.2019 |

## “Torpaq icarəsi haqqında”, “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” və “Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 12-ci, 13-cü və 27-ci bəndlərini rəhbər tutaraq, “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 3, maddə 154; 2001, 3, maddə 149; 2002, 5, maddə 241, 12, maddə 706; 2003, 1, maddə 14; 2006, 5, maddə 389, 6, maddə 478, 8, maddə 657; 2007, 8, maddə 745; 2008, 5, maddə 348, 12, maddə 1048; 2012, 6, maddə 503; 2015, 3, maddə 247; 2018, 6, maddə 1183) 2-ci maddəsinə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

“Ələt azad iqtisadi zonasında torpaqların icarəyə verilməsi və icarə münasibətləri “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 2.** “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 5, maddə 376; 2011, 7, maddə 594; 2014, 6, maddə 609; 2016, 1, maddə 17) 2-ci maddəsinin mətni 2.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 2.2-ci maddə əlavə edilsin:

“2.2. Bu Qanunun müddəaları Ələt azad iqtisadi zonasına şamil edilmir.”.

~~**Maddə 3.** “Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 10, maddə 582; 2005, 8, maddə 692; 2008, 11, maddə 960; 2013, 11, maddə 1292; 2016, 3, maddə 417) 2-ci maddəsinin mətni 2.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 2.2-ci maddə əlavə edilsin:~~

~~“2.2. Ələt azad iqtisadi zonasında kənd təsərrüfatında sığortanın stimullaşdırılması sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.~~[1]

**Maddə 4.** Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 8, maddə 478; 2001, 12, maddə 736; 2002, 5, maddələr 237, 241; 2003, 1, maddə 11, 6, maddə 256, 8, maddə 423; 2004, 2, maddə 59, 6, maddə 415, 10, maddə 761; 2006, 2, maddə 67, 6, maddə 478, 8, maddə 657, 11, maddə 932; 2007, 1, maddə 3, 8, maddə 745; 2008, 5, maddə 348, 6, maddə 460, 8, maddə 707, 12, maddə 1048; 2009, 2, maddə 36; 2012, 6, maddə 497; 2013, 6, maddə 621; 2015, 3, maddə 244, 4, maddə 358, 10, maddə 1094; 2016, 1, maddələr 24, 27, 4, maddə 639; 2017, 1, maddə 24, 7, maddə 1301, 12, I kitab, maddə 2271; 2018, 5, maddə 890, 6, maddələr 1184, 1185) 1-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“3. Ələt azad iqtisadi zonasında torpaq münasibətləri “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 dekabr 2018-ci il
1417-VQD

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1 . 27 iyun 2019-cu il tarixli **1617-VQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 23 avqust 2019-cu il, 183, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 08, maddə 1361**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 27 iyun 2019-cu il tarixli **1617-VQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 23 avqust 2019-cu il, 183, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 08, maddə 1361**) ilə 3-cü maddə ləğv edilmişdir.